Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 33 saylı Xətai birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Musazadə Ülkər Fərman qızının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 13 noyabr 2015-ci il tarixli 179 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 16 noyabr 2015-ci il

Mən, ekspert qrupunun üzvü Validə Kazımova 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 33 saylı Xətai birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Musazadə Ülkər Fərman qızının 13 noyabr 2015-ci il tarixli 179 saylı yazılı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 33 saylı Xətai birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Musazadə Ülkər Fərman qızı 13 noyabr 2015-ci il tarixdə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək səsvermə günü seçki dairəsinin bəzi seçki mənqəqələrində qanun pozuntularının olduğunu iddia etmiş, 33 saylı Xətai birinci seçki dairəsi dairə seçki komissiyasının 8 noyabr 2015-ci il tarixli 27/80 saylı qərarını mübahisələndirmiş və həmin məntəqələr üzrə səsvermənin nəticələrinin ləğv edilməsini xahiş etmişdir.

Araşdırma prosesində müraciət etmiş deputatlığa namizədlə əlaqə saxlanılmış, əlavə sənədlər və materiallar təqdim etmək, araşdırmada və iclasda iştirak etmək hüquqlarının olması izah edilmişdir. Ü.F.Musazadə araşdırmada iştirak etmiş, onun tərəfindən təqdim olunmuş video görüntülərə birgə baxış keçirilmiş, qanun pozuntularını özündə ehtiva edən digər əlavə sənəd və materiala malik olmadığını bildirmişdir.

Ərizəçi müraciətində səsvermə günü 33 saylı Xətai birinci seçki dairəsinin 2, 5, 8, 9, 12, 13, 14, 16, 19, 20, 21, 22, 28, 29, 31, 32 və 36 saylı seçki məntəqələrində müvafiq seçki dairəsinin və ya məntəqəsinin seçicilər siyahısında adı olmayan və ya həmin ərazidə qeydiyyatda olmayan şəxslərin səsvermədə iştirakı hallarının olduğunu, eyni şəxsin bir

neçə dəfə  səs verməsinə şərait yaradılmasını, bir şəxsin digər seçki məntəqəsində də səs verdiyi, bəzi seçki məntəqələrində bülletenlərin künclərinin əvvəlcədən kəsildiyini və yerli icra strukturları tərəfindən seçkilərə qanunsuz müdaxilə edildiyini bildirərək həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğv edilməsini tələb etmişdir.

Araşdırma zamanı müəyyən olunmuşdur ki, ərizəçi tərəfindən yuxarıda qeyd edilən seçki məntəqələrindən yalnız 8, 9, 29, 31 və 32 saylı seçki məntəqələri üzrə dairə seçki komissiyasına şikayət verilmiş, komissiya tərəfindən şikayətə mahiyyəti üzrə baxılaraq müvafiq qərar qəbul edilmişdir. Buna görə də ərizəçinin müraciəti üzrə araşdırma onun qeyd etdiyi bütün seçki məntəqələri üzrə deyil, Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq yalnız dairə seçki komissiyası tərəfindən mahiyyəti üzrə araşdırılmış məntəqələri üzrə aparılmışdır.

Ərizəçi Ü.F.Musazadə Mərkəzi Seçki Komissiyasına şikayətində isə qanun pozuntularının olduğu seçki məntəqələrinin əhatə dairəsini genişləndirərək, həmin dairənin 2, 5, 12, 13, 14, 16, 19, 20, 21, 22, 28, və 36 saylı seçki məntəqələrində səsvermənin nəticələrinin ləğv  edilməsini tələb etmişdir. Araşdirma ilə müəyyən edilmişdir ki, adı çəkilən seçki məntəqələrin nəticələrinin mübahisələndirilməsi ilə bağlı ərizəçi tərəfindən dairə seçki komissiyasına qanunvericilikdə nəzərdə tutulmuş qaydada müraciət edilməmiş, hazırkı vaxtda isə namizəd şikayətvermə müddətini ötürmüşdür.

Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və “Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 4.1.2-ci bəndinə əsasən seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Araşdırma prosesində ərizəçi Ü.F.Musazadə tərəfindən təqdim edilmiş səsvermə günü 5 seçki məntəqəsində tərtib edilməsi iddia edilən 3 ədəd aktın  qanuna müvafiq qaydada tərtib edilmədiyi, eyni məzmunlu və ümumi xarakterli olduğu, müvafiq qaydalara uyğun tərtib edilmədiyi, o cümlədən  həmin aktlarda onun tərtib edildiyi saatın, pozuntunun baş verməsi iddia olunan seçki məntəqəsinin nömrəsinin, onların təkcə namizəd tərəfindən imzalanması  müəyyən edilmişdir. Belə olan halda araşdırmaya təqdim edilən 3 ədəd akt sübut kimi etibarlı hesab edilə bilməz.

Araşdirma prosesində  8 saylı seçki məntəqəsində müşahidəçi olmuş K.A.Muxtarov, M.S.Şərifov, S.V.Abbasova, A.M.İsmayılova, T.A.Kərimov, məntəqə seçki komissiyasının sədri E.B.Məmmədov, katibləri N.Ş.Dadaşov, O.Mehdiyeva, üzvləri İ.E Ağamalıyev, N.Lətifova, D.A.Novruzova və məşvərətçi səs hüquqlu üzvü Ə.S.Quliyev, 9 saylı seçki

məntəqəsinin müşahidəçisi olmuş N.Ə.Salmanova, T.Q.Muxtarov, R.Y.İsmayılzadə, A.Q.İsmayılov, K.A.Kərimov, məntəqə seçki komissiyasının sədri R.Qurbanov, katibləri M.Çobanova, F.Qarayev və üzvü A.Y.Bədəlova, 29 saylı seçki məntəqəsinin müşahidəçisi olmuş F.M.Həsənzadə, E.Ə.Qurbanov, X.N.Yaqubov, R.M.Əliyev, məntəqə seçki komissiyasının sədri N.İ.Məhərrəmova, katibi Y.K.Mustafayev, üzvləri G.S.Abdullayeva və F.X.Həsənova, 31 saylı seçki məntəqəsinin müşahidəçisi olmuş S.M.Əliyev, İ.V.Əsgərov, T.N.Aliyev, N.Ə.Əliyev, Ç.R.Kərimov və Ə.S.Bəşirov, məntəqə seçki komissiyasının sədri Ə.E.Mahmudlu, katibləri Ü.Məmmədova, Z.O.Namazova və üzvləri İ.K.Ələkbərova, 32 saylı seçki məntəqəsinin müşahidəçisi olmuş Ə.D.Məhsimov, T.Ə.Tağıyev, H.Ə.Həsənov, Ə.H.Bədəlov və R.E.Salayev, məntəqə seçki komissiyasının sədri K.S.Manafov, katibləri T.H.Nadirov, A.L.Məmmədova, üzvləri S.Ə.Çobanava və N.A.Səfərov, qeydə alınmış namizəd C.A.Rzazadə, onun səlahiyyətli nümayəndəsi C.D.Dadaşov və qeydə alınmış namizəd A.Əliyevin səlahiyyətli nümayəndəsi V.O.Əhmədov öz izahatlarında müşahidəçilər üçün sərbəst və maneəsiz müşahidə aparmaq üçün normal şərait yaradıldığını, seçicilərin şəxsən səs verdiklərini, səsvermənin nəticələrinə dair məntəqə seçki komissiyalarının protokollarının surətinin heç bir mane olmadan aldıqlarını və seçki məntəqəsini tərk etdiklərini, qanun pozuntularının baş verməsi barədə məntəqə seçki komissiyalarına hər hansı bir müraciətin daxil olmadığını, səsvermə və səslərin hesablanması prosesində hər hansı qanun pozuntusuna rast gəlmədiklərini bildirmişlər.

Bundan başqa, müraciətə sübut kimi əlavə edilmiş videodisk isə qeyri-prosesual yolla əldə edildiyindən və heç bir sübut əhəmiyyəti daşımadığından əsas kimi götürülə bilməz.

Beləliklə, araşdirma əsasında 33 saylı Xətai birinci seçki dairəsinin dislokasiyasında olan bir sıra seçki məntəqərində baş verməsi ehtimal olunan qanun pozuntiları ilə bağlı iddialar öz təsdiqini tapmadığından deputatlığa qeydə alınmış namizəd Ü.F.Musazadənin müraciəti əsassız hesab edilərək təmin edilməməli, həmin dairə seçki komissiyasının 8 noyabr 2015-ci il tarixli, 27/80 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci hissələrinə əsasən **rəyə gəldim:**

1. 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 33 saylı Xətai birinci seçki dairəsi üzrə qeydə

alınmış namizəd Musazadə Ülkər Fərman qızının 13 noyabr 2015-ci il tarixli, 179 saylı müraciəti əsassız olduğundan təmin edilməsin və həmin dairə seçki komissiyasının 8 noyabr 2015-ci il tarixli, 27/80 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Validə Kazımova